**1.** $ABCD$ kvadratının təpələrindən çəkilmiş paraled düz xətlər onun müstəvisinə paralel olan müstəvini, uyğun olaraq, $A_1, B_1, C_1$ və $D_1$ nöqtələrində kəsir. $AB = 4$ sm olarsa, $A_1C_1$ parçasının uzunluğunu tapın.

A) 8 sm B) $4\sqrt{2}$ sm C) $8\sqrt{2}$ sm
D) 12 sm E) $2\sqrt{2}$ sm

*(6 aprel 2025, DİM)*

**2.** İki perpendikulyar müstəvinin birindən 2 sm, digərindən isə 4 sm məsafədə yerləşən nöqtədən bu müstəvilərin kəsişmə xəttinə qədər olan məsafəni tapın.

A) $5\sqrt{2}$ sm B) 3,5 sm
C) $2\sqrt{5}$ sm D) $\sqrt{7}$ sm
E) 2,5 sm

*(9 mart 2025, DİM)*

**3.** Müstəvi üzərində olmayan $M$ nöqtəsindən müstəviyə $MK$ və $ME$ mailləri çəkilmişdir. $MN \perp NK$, $MN \perp NE$, $\angle MKN = 30^\circ$, $MK = 6$ və $NE = 2$ olarsa, $ME$-ni tapın.




A) 6 B) 4 C) 5
D) $\sqrt{15}$ E) $\sqrt{13}$

*(2 mart 2025, DİM)*

**4.** İki perpendikulyar müstəvinin hər birindən $\sqrt{5}$ sm məsafədə yerləşən nöqtədən bu müstəvilərin kəsişmə xəttinə qədər olan məsafəni tapın.

A) $2\sqrt{5}$ sm B) 1 sm C) 2 sm
D) $\sqrt{15}$ sm E) $\sqrt{10}$ sm

*(14 aprel 2024, DİM)*

**5.** İki perpendikulyar müstəvinin birindən 5 sm, digərindən isə 12 sm məsafədə yerləşən nöqtədən bu müstəvilərin kəsişmə xəttinə qədər olan məsafəni tapın.

A) 14 sm B) 17 sm C) 13 sm
D) 10 sm E) 7 sm

*(10 mart 2024, DİM)*

**6.** Müstəvidən 6 dm məsafədə olan nöqtədən bu müstəviyə uzunluğu 12 dm olan mail çəkilmişdir. Mailin müstəvi ilə əmələ gətirdiyi bucağı tapın.

A) $80^\circ$ B) $50^\circ$ C) $30^\circ$
D) $60^\circ$ E) $45^\circ$

*(3 mart 2024, DİM)*

**7.** Müstəvidən 7 sm məsafədə yerləşən nöqtədən bu müstəviyə proyeksiyası 7 sm olan mail çəkilmişdir. Mailin müstəvi ilə əmələ gətirdiyi bucağı tapın.

A) $45^\circ$ B) $90^\circ$ C) $30^\circ$
D) $60^\circ$ E) $15^\circ$

*(2 aprel 2023, DİM)*

**8.** Uzunluğu 1 sm olan parça müstəvini kəsir və bu parçanın ucları müstəvidən 0,1 və 0,5 sm məsafədə olarsa, bu mailin müstəvi üzərindəki proyeksiyasını tapın.

*(12 mart 2023, DİM)*

**9.** İki paralel müstəvilərin birinin üzərindəki $A$ və $B$ nöqtələrindən digər müstəvini $A_1$ və $B_1$ nöqtələrində kəsən iki paralel düz xətt çəkilmişdir. $A_1B_1 = 2{,}8$ olarsa, $AB$ parçasının uzunluğunu tapın.

A) 3,2 B) 1,8 C) 2,8
D) 3 E) 1,4

*(5 mart 2023, DİM)*

**10.** $DB \perp (ABC)$ və $\angle ACB = 90°$ olarsa, $ACD$ bucağının dərəcə ölçüsünü tapın.




*(3 aprel 2022, DİM)*

**11.** $ABC$ üçbucağının $AB$ tərəfinə paralel olan müstəvi bu üçbucağın $AC$ tərəfini $A_1$, $BC$ tərəfini $B_1$ nöqtəsində kəsir. $AB = 12$ $BC : B_1C = 3 : 2$ olarsa, $A_1B_1$ parçasının uzunluğunu tapın.

*(3 aprel 2022, DİM)*

**12.** Müstəvidən 16 sm məsafədə olan nöqtədən bu müstəviyə uzunluğu 32 sm olan mail çəkilmişdir. Mailin müstəvi ilə əmələ gətirdiyi bucağın dərəcə ölçüsünü tapın.

*(13 mart 2022, DİM)*

**13.** $A$ nöqtəsindən $\alpha$ mütəvisinə $AB$ perpendikulyarı, $AC$ və $AD$ mailləri çəkilmişdir. $\angle ACB = 30°$, $AC = 16$ sm və $BD = 6$ sm olarsa, $AD$-ni tapın.




A) 7 sm B) 6 sm C) 8 sm
D) 10 sm E) 9 sm

*(12 mart 2022, DİM)*

**14.** Uzunluğu 17 sm olan parça müstəvini kəsir. Parçanın uclarından bu müstəviyə qədər olan məsafə 7 sm və 8 sm olarsa, bu parçanın müstəvi üzərindəki proyeksiyasını tapın.

*(6 mart 2022, DİM)*

**15.** Müstəvini kəsməyən $AB$ parçasının $A$ və $B$ nöqtələrindən müstəviyə qədər məsafə 3,4 sm və 4,6 sm olarsa, $AB$ parçasının ortasından müstəviyə qədər olan məsafəni tapın.

A) 2,3 sm B) 5 sm C) 4 sm
D) 8 sm E) 1,7 sm

*(5 mart 2022, DİM)*

Düzgün cavablar

1B 2C 3E 4E 5C 6C 7A 8 (0,8)

9C 10 (90) 11 (8) 12 (30) 13D 14 (5)

15C